# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## Ə M R

№ 56

Bakı şəhəri "4" iyun 2018 il

**Azərbaycan Respublikası Energetika Nazirliyinin 2018-ci il 8 may tarixli 47 nömrəli əmri ilə təsdiq edilmiş "2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı"nın icrasının təmin edilməsi barədə**

2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Energetika Nazirliyinin 2018-ci il 8 may tarixli 47 nömrəli əmri ilə təsdiq edilmiş "2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı"nın 1-4-cü və 7-ci hissələri üzrə Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyi və Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi,

"Azərenerji" ASC və "Azərişıq" ASC-nin nümayəndələrindən ibarət aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri:**

| | |
|---|---|
| Natiq Abbasov | Azərbaycan Respublikası energetika nazirinin müavini |

**İşçi qrupunun üzvləri:**

| | |
|---|---|
| Amil Mürsəliyev | Azərbaycan Respublikası Energetika Nazirliyinin Energetika şöbəsinin müdiri |
| Xalidə Məsimova | Azərbaycan Respublikası Energetika Nazirliyinin Strateji proqramlar və islahatlar şöbəsinin müdiri |
| Esmira Cəfərova | Azərbaycan Respublikası Energetika Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri |
| Asəf Rzayev | Azərbaycan Respublikası Energetika Nazirliyinin Energetika şöbəsinin müdir müavini |
| Ələsgər Həsənov | Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi və ekologiya şöbəsinin müdiri vəzifəsini icra edən |
| Pərvin Bayramova | Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin müdir müavini |
| Samir Axundov | Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri |
| İlkin Şamilov | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İqtisadi və sosial sahələrin inkişafı şöbəsinin Qeyri-neft sahələrinin inkişafı sektorunun müdiri |
| Əbülfəz Kərimov | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi aparatının Energetika və ətraf mühit statistikası şöbəsinin müdir müavini |
| Sahib Xəlilov | Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində olan Alternativ və Bərpa Olunan Enerji mənbələri üzrə Dövlət Agentliyinin Alternativ və bərpa olunan enerji mənbələri və ətraf mühitin |

qiymətləndirilməsi şöbəsinin müdiri

| | |
|---|---|
| Yusif Qarayev | "Azərenerji" ASC-nin Mərkəzi Dispetçer Xidmətinin rəis müavini |
| Nazim Əsgərov | "Azərenerji" ASC-nin Elektrik Enerjisinin İstehsalı İdarəsinin Baş mühəndisinin müavini |
| Bəhruz Sadıqlı | "Azərenerji" ASC-nin Texniki istehsalat şöbəsinin rəis müavini |
| Valeh Nəsibov | "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC-nin direktor müavini |
| Fazil Seyidov | "Azərişıq" ASC-nin Texniki şöbəsinin rəisi |

2. İşçi qrupuna tapşırılsın:

2.1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2018-ci il 8 may tarixli 47 nömrəli əmri ilə təsdiq edilmiş "2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqlardan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planı"nın 1-4-cü və 7-ci hissələrində nəzərdə tutulmuş tədbirlərin icrasını həyata keçirsin.

2.2. Görülən işlərə dair aylıq hesabatları hazırlayaraq növbəti ayın 5-dək Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsin.

3. Ümumi şöbə (E. Rzayeva) bu əmrin surətini nazirliyin şöbələrinə və aidiyyəti qurumlara çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** *Azərbaycan Respublikasının Energetika Nazirliyinin 8 may 2018-ci il tarixli 47 nömrəli əmri.*

**Nazir** **Pərviz Şahbazov**